Heydər Əliyev adına İdman Sarayında keçirilən sambo yarışlarında 74 kq. çəki dərəcəsində mübarizə aparan idmançımız ilk görüşlərində sloveniyalı Tadey Cutuk, gürcüstanlı Kaxa Mamulaşvili və bolqarıstanlı Martin İvanovu üstələyib. Finalda Amil Qasımov Belarus təmsilçisi Stepan Popovla qarşılaşıb və gərgin mübarizədən sonra rəqibinə məğlub olub.

Bununla, "Bakı 2015" I Avropa Oyunları çərçivəsində keçirilən yarışlarda uğur qazanan Təhsil Nazirliyinin idman məktəblərinin yetirmələrinin sayı 3-ə çatıb. Belə ki, bundan əvvəl İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Gimnastika Məktəbinin yetirməsi Eldar Səfərov gimnastika və Abşeron Uşaq-Gənclər İdman Məktəbinin yetirməsi Hacı Əliyev güləş yarışlarında fərqləniblər.